**UOT 75**

**Rüstəm Elman oğlu Quliyev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Müəllim**
**E-mail: painter9713@gmail.com**

# XALQ RƏSSAMI CƏLİL HÜSEYNOVUN YARADICILIĞINA BİR BAXIŞ

**Xülasə:** Bu məqalənin “Rəssam kimdir?”, “Abşeron motivləri”, “Nü janrı”, “İlandağ tablosu”, “Ağ kölgə fərdi sərgisi”, “Memarlıq layihələri”, “Horadiz Muğam Mərkəzi”, “Nəticə” adlı başlıqları var. Bu başlıqları gözdən keçirəndə Cəlil Hüseynovun usta rəssam və istedadlı layihəçi olduğu aşkarlanır.

Sənətşünas doktorant və dissertantlara, habelə tədqiqatçılara tövsiyə edirik ki, elmi məqalələr və dissertasiya yazanda bu fırça ustasının sənət əsərlərinə müraciət etsinlər. Bu əsərlərdə qiymətli informasiyalar çoxdur.

**Açar sözlər:** rəssam, rəngkarlıq, tablo, nü janrı, Abşeron motivləri, Ağ kölgə, memarlıq layihələri

*Ruh ilə əlin çalışmadığı yerdə*
*nə sənət, nə də sənətkar var*
Leonardo da Vinçi

Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini və Xarkov Dövlət Rəssamlıq İnstitutunu bitirən, Xalq rəssamı, professor, “Akademik rəngkarlıq”, “Təsvir və müstəvi” dərsliklərinin müəllifi Cəlil Hüseynov çağdaş Azərbaycanın aparıcı rəssamlarından biridir. Onun yaradıcılığı Naxçıvan motivləri, Abşeron motivləri, peyzajlar, qadın obrazları və natürmortlar olmaqla beş yerə ayrılır. Bu məqalədə fırça ustasının postsovet dönəmində yaratdığı sənət əsərlərinə baxış keçirilir.

**Rəssam kimdir?**

Gerçək rəssam o kəsdir ki, ali rəssam olan təbiətdən ilhamlanaraq, qəlbin və ruhun çırpıntılarını əl ilə kətana köçürə bilir. Hər bir təsviri sənət, o sıradan rəngkarlıq təbiətin özündədir, onun xaricində deyil. XVI əsr alman boyakarı, incəsənət nəzəriyyəçisi Albrext Dürer dediyi kimi, *“Sənət təbiətin içindədir, sənətkar onu oradan çıxara biləndir”* [13].

Rəssam sevərək və düşünərək yaradarsa, onun yaratdıqları sevgi və düşüncə impulsları yayacaq. Gerçək rəssam ətrafa ətir saçan çiçək kimidir. Çiçəklər ətir saçdığına görə hamının sevimlisidir. Dünya rəngkarlığında çiçəklər sevginin, paklığın, günahsızlığın simvollarından biridir. Mövlana Rumi hər insana, hər sənət adamına

tövsiyə edir ki, *"Sən çiçək olub ətrafa gülcüklər saçmaya söz ver, torpaq olub səni başının üstündə daşıyan tapılar"* [10].

Sənət əsərini, daha doğrusu, dərin məzmuna köklənən sənət əsərini anlamaq üçün tamaşaçı mütləq onu sevməlidir. Əgər sevərsə, beyninin bütün neyronları səs-səsə verərək o sənət əsərini anlamağa tamaşaçıya gec-tez yardım edəcəkdir. Şəms Təbrizi hələ XIII əsrdə deyirdi ki, *"Oxuyaraq öyrənəcəksən, amma sevərək anlayacaqsan"* [11].

Azərbaycanın bugünkü rəssamı, fikrimizcə, bu özəlliklərə malik olmalıdır:

– *Gerçəkyönlü baxış bucağının və müsbət enerjinin daşıyıcısı olmalıdır;*
– *Özünə inamı zirvə nöqtəsinə çatmalıdır;*
– *Yüksək notlara köklənən təsir gücü olmalıdır;*
– *Özünün maddi xeyrindən çox tamaşaçının məmnunluğunu düşünməlidir;*
– *Dərin və qırılmaz vətənsevər duyğuların sahibi olmalıdır.*

**Abşeron motivləri**

Azərbaycan boyakarlığında Abşeron mövzusu ən çox yayılan mövzudur. Bu mövzu aparıcı mövqedə dayanmış və dayanır. Bu diyardan olan fırça ustaları Abşerona istinad etdikcə, onun mənzərələrini təsvir etdikcə, bu yer rəssamlar üçün qibtə olunan yerə çevrildi. Bu minvalla Abşeron rəssamlıq məktəbi yarandı. Rəngkarlığı ilə dünyada tanınan bir çox ölkələrdə bu sayaq rəssamlıq məktəbləri olmuşdur. Florensiya rəssamlıq məktəbi (İtaliya, XIII əsr), Venesiya rəssamlıq məktəbi (İtaliya, XIV əsr), Páduya rəssamlıq məktəbi (İtaliya, XV əsr), Bolonya rəssamlıq məktəbi (İtaliya, XVI əsr), Barbizon rəssamlıq məktəbi (Fransa, XIX əsr) örnək olaraq qeyd oluna bilər. Abşeron – yer adı olduğu kimi, onlar da şəhər adlarıdır.

Abşeron rəngkarlıq məktəbinin təmsilçilərindən Səttar Bəhlulzadə romantik-lirizm, Mikayıl Abdullayev monumentallıq, Tahir Salahov sərt realizm, Cavad Mircavadov simvolizm baxımından Abşeron peyzajlarını kətana köçürən sənətkarlardır. Zaman gələr, yeni rəssamlar ortaya çıxar və onlar adları sadalanan rəssamların üz tutmadığı janrlarda Abşeronu vəsf edəcəklər.

Abşeron mövzusunda çəkən görkəmli rəssamlarımız çoxdur, onlardan ən önəmlisi Tahir Salahovdur. Bu böyük rəssamın istər Azərbaycana, istərsə də onun hüdudlarından kənara dair yaratdığı tablo və portretlərinin çoxunda Azərbaycan imzası, ruhu, koloriti var. Xalq rəssamı, akademik Ömər Eldarov yazır ki, *"Mövzusundan, üslubundan, yanaşma tərzindən asılı olmayaraq, Tahir Salahovun əsərlərinin əksəriyyətində mütləq bir parça, bir ovuc Xəzər effekti, bir cizgi Abşeron rəngi, ovqatı təsvir edilmişdir. Tahir Salahov milli təsviri sənətimizdə möhtəşəm bir Xəzər epopeyasının yaxud Abşeron dastanının yaradıcısıdır"* [3, s.9].

Xalq rəssamı Cəlil Hüseynovun sənət yaradıcılığında Abşeron mövzusu, motivləri ön planda durur. Naxçıvan şəhərində dünyaya gələn rəssamın Abşeron sevgi-

sinin səbəbini ancaq rəssam özü deyə bilər. Digər tərəfdən, Cəlil Hüseynovu şəxsən yaxından tanıdığımızdan bu qənaətdəyik ki, 1973-cü ildən, 16 yaşda Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinə daxil olan çağdan Bakı və Abşeron mühiti ilə sıx münasibətdə olmaq, gəncliyinin və dünyagörüşünün formalaşmasında buraların aparıcı rol oynaması, yerli Abşeron sakinlərinin sadə, saf və təmtəraqsız bir həyat tərzi ilə yaşaması Cəlil Hüseynovda Abşeron sevgisi yaratmışdır. Dəqiq bilirik ki, bu sənət adamı Abşeronu sevməsəydi, buranın mənzərəsini, motivlərini kətana ustayana köçürə bilməzdi. Çünki sənət əsəri zorla, hökm ilə yaranmır, rəssamın fırçasını tərpədən, ona düz istiqamət verən yalnız sevgidir, rəssamın qəlbində yanan sevgidir. Cəlil Hüseynov ona görə bu yerləri sevir ki, ana təbiətin buralara verdiyi gözəllikləri rəssam gözü ilə görüb, gördükdən sonra rəssam könlü ilə sevə bilib. Demək, insanın zatında sevgi adlı ülvi hissi yaradan – göz ilə könlün mənəvi nikahıdır. Dünyada tanınan braziliyalı Paulo Koelho düz buyurur ki, *“Əgər sən gözəl olanı görə bilirsənsə, demək, öz içində gözəl duyğu daşıyırsan”* [6].

Abşeronu tanıyan hər bir azərbaycanlı Abşeron dedikdə onun zehnində Bakı və kəndləri, Abşeronun kəndləri, mavi Xəzər, dəniz sahili, dəniz qumu, bağ evləri, zeytun bağları, əncir bağları, üzüm bağları, alçaq daş evlər, alçaq daş hasarlar, köhnə hamamlar, köhnə məscidlər, neft mədənləri canlanır. Cəlil Hüseynov onların hər birinə mənzərə çəkib. Onların bir qismi rəssamın öz kolleksiyasında, bir qismi də onun sənətini sevənlərin şəxsi kolleksiyalarında qorunub saxlanır. Heç bir rəssam yaratdığı əsərin dərin qatlarına gedib, onun incəliklərini açıb söyləyə bilməz. Yaradan yaratmaq qüdrətini rəssamın əlinə həvalə edir, dilinə yox. Dilinə izn verdiyi şəxslər sənətşünaslardır. Cəlil Hüseynovun hər əsərinə zaman-zaman sənətşünaslar qiymət verəcək, bir sənətşünasın görə bilmədiyini başqa sənətşünaslar görüb açıqlayacaqlar. Türkiyəli sənətşünas dosent Bayram Akdoğan qeyd edir ki, “Sənət elə bir idealdır ki, onun son bir sərhədi yoxdur. *Daima ən yaxşıya, ən gözələ və ən mükəmmələ doğru çalışmalar davam edəcək”* [7].

Azərbaycanın indi elə bir zamanıdır ki, Abşeron torpağında az qala hər gün əski tikililər sökülür, yerinə müasir görkəmdə yeniləri qurulur. Abşeron görüntülərini tablolarında canlandıran hər böyük fırça ustası kimi Cəlil Hüseynovun bir sənət xidməti də budur ki, onları gələcək nəsillərin yaddaşına, yazılarına ötürmək üçün rəssam olaraq vətənsevər bir missiyanı icra etmiş olur. Sənətşünas professor Ziyadxan Əliyev doğru vurğulayır ki, *“Cəlil Hüseynovun sərt və bənzərsiz Abşeron torpağına münasibətində də məkana fərdi yanaşması duyulmaqdadır. Son bir qərinə ərzində kifayət qədər müasirləşən və əvvəlki görkəmini itirən yerləri indi az qala ekzotik görünən əski mənzərəsini öz tablolarında canlandırmaya çalışan rəssam, əslində, həm də* bu *yerləri zamanında necə olduğunu gələcək nəsillərə çatdırılması yönündə xeyirxah iş görmüşdür”* [12].

Cəlil Hüseynov bu diyarın mənzərələrini yaradarkən obrazlılığı artırmaq üçün, tamaşaçıda duyğunu itiləmək üçün, onun təhtəlşüuruna (şüur altdakı yaddaşına) varmaq üçün Tanrının satın alınmayan xəzinəsindən "səma, ay, günəş, bulud, dəniz" kimi obrazlara, Tanrının satın alınan xəzinəsindən "ağac-ot-gül-meyvə" kimi obrazlara üz tutur. Qurani-Kərimdə, dahi Nizaminin poeziyasında da sadalanan bu obrazlar işlənərək, "simvol, metafora, təşbeh, mübaliğə" yaradırlar. Elə insan olmaz ki, həyatda real olaraq gördüyü bu obrazları, özəlliklə, satın alınmayan obrazları sevməsin.

**Nü janrı (Çılpaq natura)**

"Çılpaqlıq" mənasında "nü" fransızca "nudite" sözünün qısa forması kimi bir incəsənət janrı olmaqla çılpaq insan bədəninin estetikası deməkdir. Bu janrda estetik olmayan yox, estetik olan çılpaqlıq kətana köçürülür. Tablo o zaman estetik olur ki, saç, üz, boğaz, sinə nahiyəsi, qarın nahiyəsi, ayaqlar, kürək, bel, arxa nahiyə harmonik olub estetik gözəllik yaradır.

Nü janr olaraq 2500 il öncə Yunanıstanda yaranıb. O zaman tənasüblü, xoş görünüşlü çılpaq kişi bədənlərinin heykəllərini qururdular. Zaman keçdikcə bu janr rəngkarlığa da yol aldı. Artıq XV əsrdən başlayaraq böyük rəssamlar nü səpkisində tablolar yaratmağa başladılar. Onlardan bir neçəsini təqdim edirik: *Bottiçelli, "Üç qratsiya", 1477, Uffitsi Qalereyası, Florensiya, İtaliya; Tisian, "Venera güzgüyə baxarkən", 1550, Milli İncəsənət Muzeyi, Vaşinqton; Rubens, "Virsaniya", 1635, Şəkil Qalereyası, Drezden, Almaniya; Rembrandt, "Danaya", 1636, Ermitaj, Sankt-Peterburq, Rusiya; Buşe, "Veneranın bəzənməsi", 1746, Metropoliten-muzey, Nyu-York; Qoyya, "Çılpaq maxa", 1802, Prado, Madrid, İspaniya və s.*

Azərbaycanda çox az rəssam nü janrında sənət əsəri yaratmışdır. Onların ən parlaq nümayəndəsi xalq rəssamı Cəlil Hüseynovdur. Bu fırça ustası 1989-2020-ci illərdə 15 belə tablo çəkib. Tablolardakı qadınların hər biri gənc, cazibəli olub, üzlərindən yüngül davranışdan iraq xəfif bir qadın ciddiliyi yağır. Bu obrazlardan iki mesaj alırıq. Birincisi budur ki, evlilik üçün gənc, cazibəli, yüngül davranışdan iraq olan qızlara üstünlük verilsin. İkincisi odur ki, qadın bədəninin gözəlliyi önündə kişi bədəninin gözəlliyi acizdir.

Nü janrında Cəlil müəllimin kətan və yağlı boya ilə çəkdiyi əsərləri [1]: *"Natura. Etüd" (1989), "Emalatxanada" (1997), "Uzanmış qadın" (1998), "Pəncərə qarşısında" (1999), "Çılpaq qadın" (2000), "Muza" (2012), "Çılpaq natura. Etüd" (2011), "Nü" (2012), "Uzanmış qadın" (2012), "Natura. Etüd" (2014), "Nü. Etüd" (2014), "Model" (2015), "İstirahət" (2016), "Yatmış gözəl" (2018), "Yay mövsümü" (2020) və s.*



**“İlandağ” tablosu**

İlandağ – Naxçıvanda, Culfa torpağında yerləşən dağdır. Dağın gözəl mənzərəsindən ilhamlanan Cəlil Hüseynov onun təsvirini çəkərək, memarlıq layihəsini verdiyi Balakən rayon Heydər Əliyev Mərkəzinə hədiyyə etmişdir. İndi bu rəsm əsəri Mərkəzin diqqətçəkən tablolarından biridir Tablonun ortasında duran İlandağ yuxarıya doğru sivri formasında ucalaraq, ağ və qaramtıl buludların dolandığı yüksəkliyə çatır. Dağın sağında, solunda və önündə ona bitişik olan sıldırımlı təpə dağın əzəmətinə əzəmət, gözəlliyinə gözəllik verir.

Rəngkarlığımızda dağ qüdrətin, gücün, əzəmətin, yenilməzliyin, milli birliyin simvoludur. Bu tablonun ulu öndərin adını daşıyan Mərkəzə hədiyyə olaraq verilməsində üç mesaj var. Birincisi, dağ tutumlu və ağır olduğu kimi, ulu öndər də dövlət quruculuğu baxımdan tutumlu və ağır çəkili fenomendir. İkincisi, Uludağın şiş ucları qartallardan başqa heç bir insan üçün əlyetən olmadığı kimi, nə Azərbaycan iqtidarında, nə də onun müxalifətində İlham Əliyev istisna olmaqla ulu öndərin siyasətinə tay siyasət yürüdən ikinci bir şəxs yoxdur. Üçüncüsü, Uludağ düşmənə qarşı sipər, dost üçün ağuş olduğu kimi, ulu öndər də Azərbaycanı sevməyənlərə qarşı sipər idi, Azərbaycanı sevənlərə isə ağuş açırdı.

**“Ağ kölgə” fərdi sərgisi.** “Bu ilin aprelində Müasir İncəsənət Muzeyində xalq rəssamı Cəlil Hüseynovun 65 illiyinə həsr olunan “Ağ kölgə” adlı ilk fərdi sərgisi keçirildi. Mədəniyyət naziri, elm və incəsənət mənsublarının bir qrupunun qatıldığı bu incəsənət tədbirində rəssamın 60-dək əl işi tamaşaçıların baxışına təqdim olundu” [4]. Həm də ki, nazir fırça ustasına Nazirliyin fəxri diplomunu təqdim etdi [2, s.9].

Sərgidə yer alan tablolar üç qola ayrılmışdı – qadın obrazları, Abşeron mənzərələri, natürmortlar. Bunlar rəssamın zaman-zaman üz tutduğu, dövlət və el arasında ona ad-san qazandırdığı sənət ünvanlarıdır, rəssamın adını Azərbaycan rəngkarlığının tarixinə həkk etdirən damğalardır.

Bu sərginin “Ağ kölgə” adlanması bir simvola bağlıdır. Ağ kölgə təmizliyin, paklığın, üzüağlığın, dürüstlüyün, mərdliyin, sakitliyin simvoludur. Ağ kölgə rəssamın keçdiyi ömür yolunun bədii-estetik ünvanıdır.

*"Ağ – saflığın, təmizliyin və günahsızlığın simvoludur. Bundan başqa, canlılıq verən müsbət bir enerjisi vardır. Ağ sevənlər öz həyəcanını xaricə əks etdirməyən, sakit insanlardır. Özlərinə güvənləriylə və nümayişdən uzaqlıqları ilə tanınırlar. Sıxlıq mühitləri sevmədiklərindən evlərində keçən zamanları ən xoşbəxt olduqları anlardır. Yaddaşları qüvvətlidir və praktik zəkaya malikdir"* [8].

Diqqətə çatdıraq ki, Cəlil Hüseynov ABŞ, Fransa, Almaniya, Rusiya, Türkiyə, İran, Gürcüstan, Suriya, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna və başqa ölkələrdə keçirilmiş qrup sərgilərində öz sənət əsərləri ilə iştirak edib.

Memarlıq layihələri. Rəssamlıq istedadı və memarlıq bacarığına arxalanan Cəlil müəllimin təqdim etdiyi memarlıq layihələri ilə Azərbaycanda, Türkiyədə, ABŞ-da bir çox binalar tikilərək istifadəyə verilmişdir. Onların arasında inzibati binalar, muzeylər, tədris ocaqları, idman mərkəzləri, təsərrüfat kompleksləri, hotellər var.



**Azərbaycan-ABŞ Dostluq Körpüsü, Hyuston**

Toplam sayı 50-yə yaxın olan bu tikililərin heç birinin mənzərəsi və görünüşü bir-birinə oxşamır, bir-birini memarlıq baxımından təkrarlamır. Əksinə, biri digərindən gözəl göründüyü üçün hansına birinciliyi verməkdə çətinlik çəkirik. Onlara baxan hər kəs sözümüzü təsdiq edəcək. Hələ bunu deyə bilmirik ki, bu binaların içində nə kimi gözəlliklər var.

Postsovet dönəmində Cəlil Hüseynovun memarlıq layihələri ilə qurulmuş monumental tikililərin örnək olaraq bir neçəsinin adını tuturuq [9].

– *Horadiz Muğam Mərkəzi, Azərbaycan, 2010;*
– *Respublika Olimpiya Mərkəzi, Bakı şəhəri, 2020;*
– *Heydər Əliyev adına İzmir Peşə Liseyi, Türkiyə, 2013;*
– *Heydər Əliyev adına Qars Peşə Liseyi, Türkiyə, 2013;*
– *Azərbaycan-ABŞ Dostluq Körpüsü, Hyuston şəhəri, ABŞ, 2013;*
– *Azərbaycan-Britaniya Kolleci, Bakı şəhəri, 2015;*
– *Bakı İstedadlar Təhsil Kompleksi, Bakı şəhəri, 2015;*
– *Bakı Ali Neft Məktəbi, Bakı şəhəri, 2017.*



**Horadiz Muğam Mərkəzi**

Muğam sənəti Azərbaycanı dünya arenasında tanıtdıran mənəvi bir sərvətdir. Muğamın sədasında xalqımızın keçdiyi çətin yolların, üzləşdiyi müsibətlərin, qonşulardan gördüyü xəyanətin sızıltısı könülləri riqqətə gətirir. Muğam sənəti 2003-cü ildə YUNESKO-nun Qeyri-maddi İrs siyahısına daxil edilib.

Bildiyimiz kimi, Bakı Muğam Mərkəzi var, orada bu el sənəti ilə bağlı tədbirlər keçirilir, konsertlər verilir. Dövlət qərara aldı ki, musiqi beşiyi olan Qarabağa yaxın bir yerdə, Horadiz qəsəbəsində yeni Muğam Mərkəzi yaradılsın.

Muğamın daha da çiçəklənməsinə qulluq edəcək bu sənət ocağının memarlıq layihəsinin işlənməsi Cəlil Hüseynova tapşırıldı. Rəssam istedadı və memar-layihəçi bacarığından qaynaqlanan fırça ustası bu dövlət tapşırığının öhdəsindən uğurla gəldi.

Yaradan rəssamlıq sənətini verdiyi kəsə bir başqa sənətin ya da sənətlərin açarını da verir. İstər Azərbaycanda, istərsə də xaricdə elə rəssamlar çoxdur, onlar- dan biri də, göründüyü kimi, Cəlil Hüseynovdur. O, bu Muğam Mərkəzindən danışarkən sevinc hissi ilə deyir ki, "Yuxarıdan baxanda tar quş uçuşunu xatırladır. Orda tar var, qaval var, kamança da var. Azərbaycanın bütün musiqi alətlərinin elementləri burda var" [5].

**Nəticə**

Peşəkar rəssam, professor Cəlil Hüseynovun keçdiyi çoxillik yaradıcılıq yolu bir elmi məqalənin tutumuna sığmaz. Bu yolu detalları ilə tədqiq etmək bir dissertasiya mövzusunun görəcəyi sənət işidir. Cəlil Hüseynovu şəxsən tanıyan, sənət yolunda onu özünə müəllim sayan məqalə müəllifi son olaraq bu qənaətə gəlir ki:

– *Cəlil Hüseynov çağdaş Azərbaycan rəngkarlığının ən dəyərli təmsilçilərindən biridir;*

– *Abşeron mövzusunda yaratdığı tablolar onun yaradıcılığında önəmli yer tutan sənət nümunələridir;*

– *Memarlıq layihələri öz orijinallığı və gözəl tərtibatı ilə təqdirə layiq memarlıq nümunələridir;*

*– Tam əminik ki, təbiətcə sakit və azdanışan olan, xeyirxah əməllərə imza atan, müdrik pedaqoq olan bu fırça ustası qarşıdakı illərdə yeni-yeni sənət əsərləri yaradar, Azərbaycanın gündən-günə çiçəkləndiyi tarixi bir zamanda füsunkar memarlıq layihələri təqdim edəcək.*

**Ədəbiyyat siyahısı:**


1.Hüseynov C., Kataloq, Bakı, "Tuna", 2020, 116 s.
2."Xalq qəzeti", 12. 04. 2022, "Ağ kölgənin cazibəsi", 12 s.
3."Xalq qəzeti", 26. 05. 2022, "Bir ildir Tahir Salahov aramızda yoxdur", 16 s.
4.https:// www. azertag. az/xeber/Xalq rəssamı Cəlil Hüseynov
5.https:// www. estet mmc/Horadiz Muğam Mərkəzi
6.https:// www. impearls. ru/author/Paulo Koelho
7.https:// www. amp/s/docplayer/Sanat, sanatçı, sanat eseri ve ahlak
8.https:// www. m. vk. com/topic/Rənglərin mənası
9.https:// www. jalilhuseynov. com//fullscreen/Eksteryer
10.https:// www. instaqram. com/zkose47/Mevlana
11.https:// www. instaqram. com/huzur_kapisi/Şems Tebrizi
12.https:// www. medeniyyet. az/news/html/Gerçəkliyə obrazlı baxışın estetikası
13.https://www. guzel-sozler. biz/sanatla ilgili



**Рустам Эльман оглы Гулиев**


## ВЗГЛЯД НА ТВОРЧЕСТВО НАРОДНОГО АРТИСТА ДЖАЛИЛА ГУСЕЙНОВА


**Резюме:** Статья имеет такие заглавия, как "Кто такой художник?", "Апшеронские мотивы", "Жанр ню", "Живопись Иландаг", "Персональная выставка Белая тень", "Архитектурные проекты", "Горадизский центр мугама", "Эпилог". Изучив эти заглавия, выясняется, что Джалил Гусейнов мастер-художник и талантливый проектировщик.

Рекомендуем докторантам и диссертантам, а также научным работникам обращаться к произведениям искусства этого мастера кисти при написании научных статей и диссертаций. В этих работах содержится много ценной информации.



**Ключевые слова:** художник, живопись, картина, жанр ню, Апшеронские мотивы, Белая тень, архитектурные проекты

**Rustam Elman oghlu Guliyev**

**A LOOK AT THE WORK OF THE PEOPLE'S ARTİST JALİL HUSEYNOV**

**Summary:** This article has the titles “Who is a painter?”, “Absheron motifs”,“Nu genre”, “Ilandag painting”, “White shadow personal exhibition”, “Architectural projects”, “Horadiz Mugam Center”, “Epilogue”. Examining thesetitles, it is revealed that Jalil Huseynov is a master artist and a talented designer.

We recommend doctoral students and dissertators, as well as researchers, to refer to the works of art of this brush master when writing scientific articles and dissertations. There is a lot of valuable information in these works.

**Key words:** artist, painting, trade oa a dyer, genre, Absheron motifs, White shadow, architectural projects

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**